Rəhilə Əhmədova

# Səni gözləyəcəyəm

Səni gözləyirəm, səni. Qəlbimdə həsrətin yuva salıb, bilmirəm hardasan? Ancaq bu kövrək qəlbimdə həmişə yerin boş qalıb.

Gözlərim yollara dikilib intizarla. Sənin yollarına. Yaş isə öz işini görür, zaman gözləmir. O öz sığalı ilə saçlarımda gümüşü cığırlar açıb artıq.

Ancaq ümidimi üzmürəm, gözləyirəm yolunu. İnanıram ki, gec, ya tez tapacağam səni. Lap 40 yaşında, 50 yaşında olsam da belə.

Bəlkə də yoxsan həyatda. Xəyallarımda yoğrulub yapmışam səni. Özün olmasan da xəyalını yaşadıram qəlbimdə (nə yaxşı ki, xəyalın varmış).

Gəl ey həyat idealım, dan ulduzum, qurtar məni bu xəyallar dünyasından, al qanadına, enək göylərdən yerə. Heç olmasa, xəyalın həqiqətə çevrildiyini görüb xoşbəxt köçüm bu dünyadan əbədi dünyaya.

Səni gözləyirəm, gəlsən də, gəlməsən də...

# Bir dəstə gül

Bir dəstə gül... Dəstə deyəndə ki, boynubükük həsrət, ayrılıq ünvanlı üç bənövşə... Biri sən, biri mən, biri də bənövşənin özü... Yəni kədərimiz... həsrətimiz.

Bu dəstəni ad günümdə bağışlamışdın sən mənə... Ovcunun içində gizlənən o dəstəni illər boyu saxladım dəftərimin arasında... Saralıb-solub, ləçəkləri tökülüb... Görəsən nə vaxt, bir də nə vaxt ovcunun içində bir dəstə gül, üç bənövşə gətirəcəksən?

Biri sən, biri mən, biri bənövşənin özü... Yəni sevincimiz, vüsalımız...

Bir dəstə - üç bənövşə həsrətinə hər il ad günümü gözləyirəm... bu gün də ad günümdü. Mənə bağışlanan dəstə-dəstə güllərə baxıram... üç bənövşə sorağıyla. Biri sən, biri mən, biri bənövşənin özü. Yəni bəxtimiz, taleyimiz, qismətimiz...

# Tək ağac

Yaxındamı, uzaqdamı bir tənha ağac qaralır. O ağacı kim əkib, kim böyüdüb, kim qayğısını çəkib – heç kəs bilmir. Heç bu barədə düşünən də yoxdur. O ağac insanı da, heyvanı da, quşu da qışda qardan-yağışdan, küləkdən, soyuqdan qoruyur. Yazda onun çiçəklərinə baxıb zövq alırlar. Quşlar bu ağacın yaşıl budaqlarında yuva qururlar. Yayda bu ağacın kölgəsində sərinləniz, payızda meyvəsini yeyirlər. Günlərin birində ağac quruyanda da kara gəlir. Onu kəsib sobaya atırlar, istisinə qızınırlar.

Sanki mənim taleyimdi tək ağac. Bəlkə ondandır ki, tək ağac qəlbimdə bu qədər hisslər yaradıb. Fərq ondadır ki, o ağacdır, mən canlı insan. O sükunətdir, mən haray-qışqırıq. Bilmirəm o ağac xoşbəxtdir, yoxsa mən?! Təkcə onu bilirəm ki, Allah heç kəsi və heç kimi tək-tənha etməsin - qəlbimdə yuva salan tək ağac kimi...